*Abdullayeva Nailə Əmir qızı,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*Email: zumruda@inbox.ru*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZN QORUNMASI İSTİQAMƏTİNDƏ APARILAN TƏDBİRLƏR

Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın bir dövr ərzində işğal altında saxlayaraq, bu torpaqları talan etmiş, xalqımızın milli-mənəvi dəyərlərinə qarşı əsl soyqırımı həyata keçirmiş, milli-mənəvi dəyərlərimizin mühüm tərkib hissəsi olan tarixi abidələrimizi dağıtmaqla yanaşı, onları təhqir etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələyə münasibət bildirərək qeyd etmişdir ki, "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb". Prezidentimiz bunu təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirmişdir. Ermənilər tərəfindən məscidlərdən tövlə kimi istifadə edilməsi onların mahiyyət etibari ilə hansı mənəviyyatın, çirkin xüsusiyyətlərin daşıyıcısı olduqlarını bir daha sübut edən faktdır.

Xatırladaq ki, Ağdamda Şahbulaq ərazisində yerləşən, Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilən Şahbulaq məscidi, onun davamı sayılan Paprəvənd kənd məscidi viran edilmişdir. Zəngilan, Cəbrayıl rayonlarındakı, Qubadlının Məmər, Füzulinin Alxanlı kənd məscidlərini də ermənilər donuz ferması kimi istifadə edərək, təhqir etmiş və dağıtmışlar. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Yusifbəyli kənd məscidi, Zəngilan rayonunda Zəngilan şəhər məscidi də viran edilmişdir. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın (XIX əsr) və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan vurulmuşdur. İbrahimxəlil xanın türbəsi (XIX əsr) isə tamamilə dağıdılmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını qorumaq mümkün olmuşdur.

Məlumdur ki, Yuxarı Gövhər ağa məscidi Şuşanın mərkəzində yerləşir və Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhər ağanın adı ilə bağlıdır. Binanın üzərindəki naxışlar, eləcə də Gövhər ağanın vəsiyyətlərini əks etdirən daş kitabələr və islam dininin müqəddəs kitabı "Qurani-Kərim"dən ayələr şuşalı xəttat Mir Möhsün Nəvvab tərəfindən işlənilmişdir

1992-ci ildə Şuşanın işğalı zamanı məscid ciddi dağıntılara məruz qalmış, ermənilər tərəfindən "təmir-bərpa" adı altında məscidin üzərində olan və onun Azərbaycan xalqının mədəni abidəsi olduğunu təsdiqləyən naxışları məhv etməyə çalışmışlar. Məqsədləri məscidi erməniləşdirmək olub, amma buna nail ola bilməyiblər, çünki

Azərbaycan xalqının mənəvi dünyasının ayrılmaz hissəsi olan və mənəvi dəyərlərimizə aid olan məscidi erməniləşdirilmək qeyri-mümkündür.

Ağdam Cümə məscidinin divarlarını isə ermənilər yalnız hərbi məqsədlər üçün saxlamışdılar. İşğaldan sonra ermənilər məscidi benzin töküb yandırmış, divarlarına təhqiramiz ifadələr yazmışlar. İçərisində isə mal-qara və donuz saxlamışlar.

Qeyd etmək lazımdır ki, milli mədəniyyətdə dini və dünyəvi, bəşəri tərəflər vəhdət təşkil edir. Milli ənənələr ictimai həyatın bütün sahələrini və ictimai şüurun bütün formalarını əhatə edir və dərin ictimai idraki məzmuna malikdir. Dini ənənələrə isə dini baxışlar, ayin və mərasimlər, təbiət və cəmiyyət hadisələrinə münasibətdən doğan dini adət-ənənələr, davranış tərzləri daxildir. Dini dəyərlər olmadan milli mədəniyyəti təsəvvür etmək mümkün deyil, öz növbəsində bəşər mədəniyyətinin də dolğunluğu, qüdrət və əzəməti millilikdən qaynaqlanır. Akademik F.Qasımzadə qeyd edir ki, "... mədəniyyət tarixində dinin yerini danmaq, tarixin özünü danmaqdır. Azərbaycan fəlsəfi və ictimai-siyasi fikri, xüsusən də çoxəsrlik zəngin ədəbiyyatı, elə bütövlükdə, elmi və mədəniyyəti islamın güclü təsiri altında inkişaf etmişdir [1, 91].

Xalqımızın mənəvi mədəniyyət tarixində islam mədəniyyətinin rolu danılmazdır. İslam dininin tarixi VII əsrdən başlayır. "Azərbaycan isə VIII əsrdən başlayaraq tədricən ərəbdilli müsəlman mədəniyyəti orbitinə daxil olub" [3, 65]. Bu gün də islam dini mənəvi dünyamızın ayrılmaz bir hissəsidir və Azərbaycan xalqının mənəvi dəyərlərinin formalaşması və inkişafına böyük təsir göstərmişdir.

Qeyd edək ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağın 30 ilə yaxın işğalı dövründə dağıdılan yalnız islam mədəniyyətinə aid olan abidələr deyil, ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi abidələr vandallığa məruz qalmış, muzeylər talan edilmişdir. İlk insan məskənlərindən biri kimi tanınan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər ilə dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal edilmiş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, Qafqaz Albaniyasına məxsus tarixi abidələrimiz məhv edilmişdir.

Bu faktlar bir daha onu sübut edir ki, Ermənistan tərəfindən mədəniyyət obyektlərinə qarşı bu cür vandal hərəkətlər beynəlxalq sənədlərə, o cümlədən məsələn, 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının tələblərinə, eləcə də «Arxeoloji irsin qorunması haqqında» Avropa Konvensiyasının, «Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya»nın müddəalarına ziddir. Ermənistan bu beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozmuşdur [2].

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə abidələrin ümumi sayı 3 minə qədərdir. Ermənistan işğal dövründə onları məhv edib, dağıtsa da, Qarabağ torpaqlarının ermənilərə məxsus olduğunu sübut edə bilməmişlər. Belə ki, tarixin bütün dövrlərində bu ərazidə yaşayan titul etnos azərbaycanlılar olub, Qarabağ torpaqları Azərbaycan xalqının tarixi, ana torpaqlarıdır, vətənidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikri konkret və gözəl bir şəkildə belə ifadə etmişdir: "Qarabağ Azərbaycandır!". Bu fikir Azərbaycan

xalqının doğma torpaqları olan Qarabağı ermənilərin işğalından azad edərkən, xalqın şüarına çevrilmişdir. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşərək, doğma topraqlarını işğalçı ermənilərdən azad etdi və hal-hazırda işğaldan azad edilmiş ərazilərdə müasir dövrün tələblərinə uyğun bərpa işləri aparır. Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası və yenidən qurulması həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Heydər Əliyev Fondu Qarabağ ərazisində Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpasına başlamış və bu layihə çərçivəsində fond artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırmışdır. Məsələn, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşmış, kompleks istifadəyə verilmişdir. Xatırladaq ki, bu kompleksdə yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin mart ayından başlamış və abidə tarixi görkəminə uyğun olaraq bərpa edilmişdir. Həmçinin görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Fondun dəstəyi ilə yenidən qurularaq, Şuşa şəhərində ucaldılmışdır.

Qeyd edək ki, təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Abidələrin hər birinin bərpası Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi ilə bağlı imzaladığı Sərəncam şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha sübut edir.

Prezidentimiz işğaldan azad edilmiş ərazilərdə mənəvi dəyərlərimizin qorunması ilə bağlı görülən işlərə münasibət ifadə edərək qeyd etmişdir ki, "Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir.

Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur."

Sonda qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etdikdən sonra Qarabağda genişmiqyaslı quruculuq işləri aparır. Mədəni-tarixi abidələrini bərpa edir, müasir dövrün tələblərinə uyğun layiqli yaşayış yerləri, infrastruktur yaradılması, milli iqtisadiyyata inteqrasiya və dayanaqlı inkişafın təmin edilməsi istiqamətində ardıcıl tədbirlər planı həyata keçirir. Qarabağın inkişafı üçün tətbiq edilən layihələr və tədbirlər planı nəticə olaraq, yaxın vaxtlarda bu bölgənin həm iqtisadi inkişafına, həm də bu ərazidə sülh və əməkdaşlıq əlaqələrinin qurulmasına böyük təsir göstərəcək.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qasımzadə F.F. Klassiklərimiz və islam. "Kəlam". Elmi-ədəbi publisistik jurnal. 2002, №8, səh.91.
2. www.president.az
3. История азербайджанской философии. т.1 – Баку: Элм, 2002, стр.65.